**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNIVERSİTETİ**

*Əlyazması hüququnda*

**VAHABOVA SEVİNC QƏRİBAĞA QIZI**

# AZƏRBAYCANIN SON ORTA ƏSR SİLAHLARININ ÖYRƏNİLMƏSİNDƏ MUZEY MATERİALLARININ ROLU

İxtisas: 07.00.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2011**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin Heraldika elmi-fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix elmləri doktoru, professor **Ş.F.FƏRZƏLİYEV**

**Rəsmi opponentlər:**
Tarix elmləri doktoru, professor **Z.M.HƏSƏNALIYEV**

Tarix üzrə fəlsəfə doktoru **N.Ş.ƏMİRBƏYOVA**

**Aparıcı müəssisə:** **Bakı Slavyan Universitetinin Azərbaycan tarixi və İctimai elmlər kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 18 mart 2011-ci il tarixli 102 saylı əmri ilə Bakı Dövlət Universiteti nəzdində yaradılmış tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_____" __________ 2011-ci il tarixli iclasında saat ____ keçiriləcəkdir.

**Ünvan:** Az-1148, Bakı şəhəri, Z. Xəlilov küç. 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ______________ 2011-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**t.e.d. professor** **R.C.Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin sonu - XXI əsrin əvvəllərində öz müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan Azərbaycan xalqının tarixində hərbi-siyasi hadisələr, hərb sənəti mühüm yer tutur. Bu - Azərbaycanın ən qədim çağlardan müasir dövrümüzədək olan hərb tarixinin tədqiq və təbliğinin vacibliyinitəsdiq edir. Mühüm və çoxşaxəli bu problemin həll olunması Azərbaycan hərb tarixinin, hərb işinin öyrənilməsinə həsr edilmiş elmi araşdırmaların olmasından bilavasitə asılıdır. Məhz müstəqillik illərində məqsədyönlü şəkildə həyata keçirilən tədqiqat işləri göstərir ki, ümumdünya hərb tarixinin inkişafında azərbaycanlı hərbiçilərin və silahqayıran ustaların böyük rolu olmuşdur. Onu da qeyd etməliyik ki, istər Azərbaycan hərb tarixinin öyrənilməsi, istərsə də azərbaycanlıların ayrı-ayrı orduların tərkibində xidmətlərinin araşdırılması ilk növbədə tarixi mənbələrin elmi dövriyyəyə daxil edilməsindən birbaşa asılıdır.

Tariximiz təsdiq edir ki, bəşəriyyətin sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan bir çox hallarda coxəsrlik tarixin mürəkkəb hadisələrinin baş verdiyi meydanlardan olmuşdur. Təbii sərvətlərlə zəngin coğrafi cəhətdən əlverişli məkanda yerləşən və gözəl iqlim şəraitinə malik Azərbaycan əsrlər boyu həm yaxın, həm də uzaq dövlətlərin beynəlxalq rəqabət obyektinə çevrilmişdi. Hər işğalçı dövlət bu zəngin diyarda öz hökmranlığını bərqərar etməyə can atırdı. Yadellilərə qarşı uzunmüddətli və çoxsaylı qanlı döyüşlərdə Azərbaycan xalqı nəinki öz varlığını, məişətini və mədəniyyətini qoruyub saxlamış, həm də müxtəlif tarixi dövrlərdə bölgədə və onun hüdudlarından kənarda baş vermiş hərbi-siyasi hadisələrdə həlledici rol oynaya bilmişdi. Bu yalnız əsrlər boyu davam edən hərbi ruh, məğrurluq və dözümlülük sayəsində mümkün olmuşdur. Azərbaycan xalqı öz torpaqlarını qorumaq üçün kifayət qədər potensiala malikdir. Xalqın Vətənə sədaqəti, məhəbbəti və onu qorumaq cəhdi bu ölkənin ən dəyərli potensialıdır. Bu hisslər Azərbaycan xalqının tarixi adət-ənənələri ilə birgə yaşanmışdır.

Bu günün vacib məsələsi olan Milli Silahlı Qüvvələrin möhkəmləndirilməsi işi Azərbaycanın hərb tarixinin hərtərəfli, dərin elmi tədqiqi və təbliğinin aktuallığını artırır. Torpaqların qorunması uğrunda sələflərimizin göstərdiyi görk olacaq hünər müasir gəncliyimizi babalarınnın şücaətini yaşatmaqla yanaşı, onlardan öyrənməyə səfərbər edə biləcək ən təsirli qüvvə və vasitədir. Buna görə də hərb tariximizin, onunmühüm tərkib hissəsi - Azərbaycanda tarixən tətbiq edilmiş silahların və hərbi texnikanın

öyrənilməsi, tədqiq olunması, onun müasirlərimizə çatdırılması həm də mənəvi əhəmiyyətə malikdir.

Çoxəsrlik Azərbaycan hərb tarixində orta əsrlər dövrü xüsusi yer tutur. Bu dövrdə bir–birini əvəz edən Azərbaycan dövlətləri müxtəlif uzaq və yaxın dövlətlərlə uzunmüddətli müharibələr aparmışdır. Bu müharibələrin gedişində genişmiqyaslı hərbi əməliyyatların təşkili, silahlı qüvvələrin quruluşu və digər hərbi təcrübələr qazanılmışdır. Azərbaycan xalqının bir etnik vəhdət kimi təşəkkül tapdığı bu dövrdə onun hərbi adət - ənənələri də meydana gəlmişdir. Bu ənənələr hərb sənətinin müxtəlif sahələrində, o cümlədən silahların və texnikanın istehsalında da özünü göstərmişdir.

Mövzunun aktuallığı XVIII əsrin sonu – XIX əsrin əvvəllərində hərb sənətinin, bu dövr silahlarının xüsusiyyətlərinin öyrənilməsinin vacibliyi ilə şərtlənir. Qeyd etmək lazımdır ki, əksər hallarda əsasən muzeylərdə qorunan bir çox silahlar tədqiqatlardan kənarda qalır. Müxtəlif muzeylərin, ilk növbədə Milli Azərbaycan Tarixi Muzeyinin materiallarının elmi dövriyyəyə daxil edilməsi ilə hərb tariximizin bir sıra problemlərinin öyrənilməsi daha yüksək mərhələyə çatır. Bu araşdırmalar həmçinin, təsdiq edir ki, Azərbaycan silahları əsrlər boyu xalqın bədii, estetik normalarının texniki təfəkkür və təcrübə ilə birləşməsinin unikal nümunələri olmuşdur. Bütün bunlar tədqiq etdiyimiz mövzunu daha aktual edir.

**Tədqiqatın xronoloji çərçivələri.** XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərini Azərbaycan xanlıqları dövrünü əhatə edir. Burada bütün növlərdən olan Azərbaycan silahlarının təsnifatı, izahı verilir, bu silahların hazırlanma üsulları, istifadə qaydası nəzərdən keçirilir və təhlil edilir. Tədqiq olunan XVIII əsrin sonu – XIX əsrin əvvəli dövrü Azərbaycanda siyasi pərakəndəlik, xanlıqların yaranması dövrüdür. XVIII əsrdə ictimai - iqtisadi və siyasi sahələrdə dəyişikliklər meydana gəlmiş, iqtisadi və siyasi parçalanma nəticəsində ayrıca dövlət olan xanlıqlar yaranmışdı. Onlardan hər birinin xüsusi qoşunu, ordusu mövcud idi. Siyasi pərakəndəlik ara müharibələrinin xüsusiyyərlərini müəyyən edirdi. Xanlıqlar dövründə müharibələr əsasən ara müharibələri səçiyyəsi daşıyırdı. Bu ara müharibələri bir xanın hesabına zənginləşmək və nüfuz dairəsini artırmaq uğrunda aparılırdı.

**Mövzunun öyrənilmə səviyyəsi.** XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın hərb sənəti, silahları ilə bağlı xüsusi tədqiqat işi olmasa da, bəzi problemlər ümumiləşdirilmiş əsərlərdə və bir sıra məqalələrdə öz əksinin tapmışdır. Ümumiləşdirici əsərlərdən ilk növbədə yeddicildlik Azərbaycan tarixinin XVIII-XIX əsrləri əhatə edən III cildini (məsul redaktor O.Ə.Əfəndiyev) göstərmək olar. Bununla yanaşı Vətən tarixşünas-

lığında orta əsr hərb tarixinə dair əsərlər sırasında A.S.Yunusovun[1], S.Ə.Əhmədovun[2], N.Ş.Əmirbəyovanın[3], S.Məmmədovun[4] araşdırmaları diqqəti cəlb edir. A.S.Yunusov öz namizədlik dissertasiyasında XI - XIII əsrin əvvəllərində Azərbaycanın hərb sənəti tarixini hərtərəfli şəkildə araşdırmağa çalışmışdır. Vətən tarixşünaslığında orta əsr hərb sənətimizə aid olan ilk tədqiqat əsəri kimi  bu dissertasiyada müxtəlif növlü silah nümunələri haqqındaməlumat verilmişdir.

S.H.Məmmədov  "Azərbaycanın müharibə və hərb sənəti tarixi" adlı kitabında mənbələrə əsaslanaraq qədim dövrdə  və orta əsrlərdə hərb tarixi ilə  bağlı olan mürəkkəb məsələlərin inkişafını kompleks şəkildə təhlil etməyə çalışmışdır. Əsərin VI ("Orta əsr Azərbaycan silahlarının ümumi xarakteristikası") fəslində Azərbaycan silahlarının bəzi nümunələri haqqında ətraflı məlumatlar verilmişdir[5].

S.Ə.Əhmədov öz namizədlik dissertasiyasında Azərbaycanın hərb sənəti tarixinin XIII-XV əsrlər dövrünü araşdırmış, monqol dövlətinin işğalı  nəticəsində bu sənətini müxtəlif sahələrində baş vermiş dəyişikliklər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hərb sənəti haqqında geniş, hərtərəfli məlumat vermişdir. Bu dövrün bəzi hərbi problemləri, orta əsr silahları haqqında məlumatlar S.Əhmədovun bir sıra digər əsərlərində də işıqlandırılmışdır[6].

N.Ş.Əmirbəyova ilk dəfə olaraq "Вопросы военной истории Азербайджана в период ханств" adlı monoqrafiyasında tədqiq olunan dövrün sənədlərinə, mənbələrinə istinad edərək Azərbaycan tarixinin xanlıqlar

---

[1] Юнусов А.  История военного дела в Азербайджане в IX-  начале XIII веков. Автореферат диссерт. на соиск.канд. ист. наук,  Баку,1986.

[2] Əhmədov S. XIII-XV əsrlərdə Azərbaycanda hərb sənəti tarixi. T..e. n. ...avtoreferatı, Bakı, 2001, s.32.

[3] Амирбекова Н.Ш. Вопросы военной истории Азербайджана в период ханств. Баку – Элм, 2004, с.187.

[4] Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древнейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, с.385.

[5] Yenə orada, s.387

[6] Əhmədov S. ATM müdafiə geyimləri (zireh, dər və bədən). Azərbaycan Tarixi Muzeyi – 80 il. Bakı, Elm, 2001,s. 350; Əhmədov S. Qolçaqların təsnifatı. Azərbaycan Tarixi Muzeyi. Bakı, Elm, 2003, s.335; Əhmədov S. Azərbaycanın XIV – XVI əsrlərdə əlbəyaxa döyüş silahları. Hərbi bilik, 1998 № 3. s. 84-87; Əhmədov S. E. ə.XIII-e.ə.VIII əsrlərdə Azərbaycanda silahlar (Mingəçevir qazıntıları əsasında) Hərbi bilik, 1997 № 2, s. 78-81; Əhmədov S.Ə.Azərbaycanda top və tüfənglərin istifadəsi məsələsinə dair (XIV – XV əsrlər). Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2001, №3 (s. 94-102); Əhmədov S.Ə. Ağqoyunlu qoşunları. Bakı,2002; Əhmədov S.Ə. , Cəfərova E.B. Azərbaycan orta əsr silahları. Bakı, Elm, 2005, s.154.

dövründə qoşunların quruluşu, təşkili, silahlanması məsələlərini təhlil etmişdir[1].

Bütün bu tədqiqatçıların Azərbaycanın orta əsr hərb sənəti tarixinin, o cümlədən silahlarının araşdırılmasında rolu olmuşdur və onların məlumatlarından təqdim olunan tədqiqat əsərində analoji araşdırmalar, müqayisələr aparmaq üçün istifadə edilmişdir.

Bunlarla yanaşı dissertasiyada Azərbaycanın xanlıqlarının tarixini araşdırmış müəlliflərin monoqrafiyalarından da istifadə olunmuşdur. Bu sırada H.Ə.Dəlilinin [2], Ə.Rəcəblinin [3], C.Mustafayevin [4], F.Əliyevin, M.Əliyevin[5], T.Mustafazadənin[6], V.Umudlunun[7], H.M.İbrahimbəylinin[8], G.Məmmədovanın[9], M.İsgəndərovanın[10], K.Dadaşovanın[11], Z.Həsənəliyevin[12] və başqalarının əsərlərini göstərmək olar.

Əsas diqqətini orta əsrlərin hərbi-siyasi hadisələrinə yönəldən AMEA müxbir üzvü, professor Y.M.Mahmudov bir sıra əsərlərində Ağqoyunlu-Osmanlı müharibələrinin səbəb və nəticələrini, ayrı-ayrı döyüş əməliyyatlarının gedişini araşdırmış, orta əsr Avropa səyyahlarının məlumatlarını şərh etmişdir. Müəllif Ağqoyunlu hökmdarlarının odlu silah əldə etmək üçün səylərini sənədlər əsasında göstərmişdir[13]

---

[1] Амирбекова Н.Ш. Вопросы военной истории Азербайджана в период ханств. Баку – Элм, 2004, с.187.

[2] Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, “Elm”, 1979, s. 143.

[3] Раджабли А. Нумизматика Азербайджана. Баку, 1997,с.232.

[4] Мустафаев Дж. Северные ханства Азербайджана и Россия (конец XVIII-нач. XIX) Баку, 1989.

[5] Əliyev F. Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996.

[6] Mustafazadə T. Quba xanlığı. Bakı,Elm, 2005, s.480.

[7] Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828) Bakı,2004.

[8] Ибрагимбейли Х..М.Россия и Азербайджан в первой трети XIX века. Москва, «Наука», 1969, с.286.

[9] Мамедова Г. О походе В.Зубова в Азербайджан (1796) Баку, 2003,с.256.

[10] Искендерова М. Бакинское ханство. Баку, «Чашыоглы», 1999,с.209.

[11] Dadaşova K.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı, “Nurlan”, 2003, s.439.

[12] Həsənəliyev Z.M. XII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı, “Nurlar”, 2007, s.343.

[13] Махмудов Я.М. Причины и начало дипломатических отношений государства Ак-коюнлу с Венецией. Ученые записки Азерб.Госуд.Университета, серия исторических и философских наук. Баку,1977,№ 1; Mahmudov Y.M. Odlar yurduna səyahət.bakı, Gənclik, 1980, s.119; Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı,Gənclik,1985,s.142; Махмудов Я.М. Взаимоотношения государств Аккоюнду и Сефевидов с западноевропейскими странами (IIполовина XV-начало XVIIвека) Баку, Издательство Бакитского университета,1991,с.262;Mahmudov Y.M. Ağqoyunlu-Venesiya münasibətləriində Türkiyə problemi.Az.SSR EA Xəbərləri, THF seriyası, Bakı, Elm, 1971,№2.

İlk və erkən orta əsrlərdən bəri soyuq silahların təkamül prosesinin tədqiq edərkən bəzi silah növlərinin hakimiyyət rəmzi, dövlətçilik simvolu

kimi istifadə olunması müşahidə olunur. Məhz bu baxımdan akademik N.M.Vəlixanlının tərtibatı və müəllifliyi ilə nəşr olunmuş "Azərbaycanda dövlətçilik və onun rəmzləri" adlı kitab-albom maraqlı bir mənbədir. Burada şeşpər, buncuq kimi zərbə silahlarının məhz dövlətçilik, hakimiyyət rəmzi olması göstərilir[1].

Dissertasiyanın odlu silahlara aid fəslinin yazılmasında Azərbaycanın çağdaş tarixşünaslığında bu problemi araşdırmış müəlliflərdən AMEA müxbir üzvü O.Əfəndiyevin bir sıra əsərlərindən istifadə olunmuşdur. Onun əsərində odlu silah növlərindən olan toplardan istifadə olunması haqqında maraqlı məlumatlara rast gəlinir[2].

Tarix elmləri doktoru Ş.F.Fərzəliyev tərəfindən Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin idarəetmə sisteminin, burada mövcud olmuş hərbi rütbələrin, istifadə olunmuş silahların işıqlandırılması dissertant üçün mühüm əhəmiyyət kəsb edir[3].

Hərb işinin tərkib hissəsi olan hərbi-mühəndis işi, silahların texniki cəhətdən quruluşu, silah istehsalı haqqında məsələ və problemlər bir sıra elmi əsərlərdə araşdırılır[4].

Tədqiqat işində müdafiə vasitələrinin, soyuq silahların təsnifatı, izahı, təsvirləri, odlu silahların yaranma tarixi, hazırlanma texnikası, istifadə qaydası təhlil edilir. Orta əsrlərə aid olan silahlar haqqında yerli tarixçilərin qısa şəkildə, rus müəlliflərinin isə daha geniş təqdim etdikləri məlumat araşdırılır[5].

---

[1] Vəlixanlı N.M. Azərbaycanda dövlətçilik və onun rəmzləri. (Tərtib edəni və mətnin müəllifi tarix elmləri doktoru N.Vəlixanlı), Bakı, 2000, s.95.

[2] Эфендиев О. Азербайджанское государство Сефевидов.Баку,1981 с.306.

[3] Fərzəliyev Ş. XV əsr Azərbaycan dövlətlərinin quruluşu.Bakı, 2003, s. 117; Fərzəliyev Ş. Azərbaycan və Osmanlı imperiyası . Bakı, 1994.s. 197; Fərzəliyev Ş. Azərbaycan XV - XVI əsrlərdə. Bakı, 1983, s.151.

[4] Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века.Баку,Элм,1981, с.174; Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, s.271; Шиллинг Е. М. Кубачинцы и их культура. М.-Л.1949. с.223.

[5] Денисова М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М., 1953, с.168; Горелик М.В. Оружие Древнего Востока. М., 1993, с. 297; Горелик М.В. Джентльменский набор из Стамбула. «Мастер ружье». № 66, 2000; Бутков П.Г. Материалы по новой истории Кавказа с 1722 по 1803 гг. т.I-III.СПб. 1869, с.548; Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе. Т.I-IV. СПб., 1871-1888г.; Дубровин Н.Ф. Поход графа Зубова в Персию в 1796 г. Военный сборник 1874 г.№2-6; Щербатов К. «Князь Паскевич:его жизнь и деятельность» СПб склад Березовского 1890г.т.II.с.331; Ленц Э. Императорский Эрмитаж. Указатель отделения средних веков и эпохи Возрождения. Часть 1. Собрание оружия. С-Пб., 1908, с. 374; Ленц Э.Императорский Эрмитаж. Указатель отделения средних веков и эпохи Возрождения. Часть 1. Соб рание оружия. С-Пб.,

Soyuq və odlu silahların hazırlanması, işlənməsi haqqında ətraflı məlumata Azərbaycan tədqiqatçılarının əsərlərində də təsadüf etmək olar. M.H. Heydərovun monoqrafiyaları və məqalələri bu baxımdan daha maraqlıdır [1]. Odlu silahların texniki cəhətdən hazırlanması, topçuların geyimləri haqqında məlumatlara bir sıra müştərək məqalələrdə təsadüf olunur[2]. Azərbaycanın orta əsr silahları bir sıra xarici tədqiqatçıların da diqqətini cəlb etmişdir. Dissertasiyada silahlar haqqında Y.Streysin [3], A.Olearinin[4], Q.Druvilin[5], V.Minorskinin[6] əsərlərindəki məlumatlardan da kifayət dərəcədə istifadə edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Hər bir xalqın milli vətənpərvərlik hisslərinin təşəkkülündə onun hərb tarixinin xüsusi rolu və böyük əhəmiyyəti vardır. Hərb tariximiz Azərbaycan xalqının qürur mənbəyidir, milli şüurun mübarizlik ruhunda təşəkkülündə ciddi əhəmiyyət kəsb edir. Bu baxımdan hərb tariximizin aktual cəhətlərindən biri onu təşkil edən hər bir sahənin öyrənilməsi, tarixi mənbələr əsasında araşdırılmasıdır. Bu baxımdan Milli Azərbaycan Tarixi Muzeyinin dissertasiya işimiz üçün mənbə rolunu oynayan silah kolleksiyası maddi mədəniyyət abidələri içərisində mühüm yer tutur. Muzeyin təsis olunduğu 1920-ci ildən başlayaraq təşkil olunan, müxtəlif xalqların və dövrlərin silahlarını özündə ehtiva edən bu kolleksiyada 600-dən çox nümunə vardır. Kolleksiya həm bədii cəhətdən, həm də böyük tarixi dəyərlilik baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat obyektimiz olan mövzunun araşdırılması zamanı orta əsr Şərq müəlliflərinin əsərləri, şərq hərbi traktatları, Avropa və Şərq səyyahlarının qeydləri, bədii ədəbiyyat nümunələri, dövrün bir sıra sənədləri, illüstrativ mənbələr istifadə edilmişdir. Bununla yanaşı son orta əsrlərdə Azərbaycanın hərb sənəti səviyyəsinin, bu dövrün silahlarının tədqiq və təhlili zamanı dövrün ərəb, fars, türk, Avropa müəlliflərinin əsasən tərcümə olunmuş əsərlərindən də istifadə olunmuşdur. Şərq yazılı mənbələri arasında xüsusi yeri hərbi məsələlərə həsr olunmuş traktatlar

---

1915, с.120; Маркевич В.Е. Ручное огнестрельное оружие. Т.I, Ленинград. Артиллерийская академия РККА им.Дзержинского,1937, с.491.

[1] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-VII вв.Баку,1982.с.280; Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку,1980. с. 189.

[2] Кибовский А., Егоров В.. Персидская регулярная армия I-ой пол. XIX вв. Ч.2.Цейхгауз № 5-6, 2000,с.20-29.

[3] Стрейс Я.Я. Три путешествия. Пер. Э.Бородиной. СОЦЭКГИЗ.1935.

[4] Олеарий А. Описание путешествий Московию в Персию и обратно. СПб - 1906 с. 494.

[5] Друвиль Г.Путешествие в Персию в 1812 и 1813 годах. Ч. 1-2. М.,1826, с.398.

[6] Минорский В. История Ширвана и Дербента X-XI вв. М., 1963, с.203.

tutur[1].

Dissertasiyasının yazılması zamanı Azərbaycan tarixşünaslığının banisi sayılan A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinə xüsusi diqqət yetirilmişdir. Bu əsərdə xanlıqlar dövrünün silah növlərinin adlarına rast gəlinir. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində xanlıqların siyasi tarixini işıqlandırır və onun məlumatları XVIII əsr Azərbaycan dövlətçiliylnə aid olan məsələlərin öyrənilməsində çox dəyərli mənbədir[2].

Daha bir dəyərli mənbə kimi "Qarabağnamələr" toplusundan istifadə edilmişdir. Bu topludakı əsərlər yalnız adi tarixi salnamələr deyildir. Həmin əsərlərin müəllifləri etnoqrafik materiallara, tarixi abidələrin təsvirinə, adət-ənənələrinə, maddi mədəniyyətinə aid qiymətli meateriallara istinad edərək xanlıqlar dövrünün siyasi, iqtisadi, hərbi hadisələrini ətraflı şəkildə təhlil etmişlər[3].

Dissertasiyada XVIII əsrin sonu – XIX əsrin əvvəlinə aid bir sıra rus mənbələrindən, rus dilində çap olunmuş arxiv materiallarından,həmçinin o dövrün müasirləri olmuş rus müəlliflərinin əsərlərindən də istifadə edilmişdir.[4]

Öyrənilən dövrün dövrün başqa bir qaynağı olan Mirzə Mehdi Astrabadinin "Tarixi - cahanqoşaye-i Nadiri" əlyazmasına çəkilmiş miniatürlər əsasında da XVIII əsr silahlarını tədqiq etmək mümkündür. Həmin əsrin I yarısında yaşamış tarixçi-miniatüçü rəssam müxtəlif silah növlərini: təkərli topları, qılıncı, şeşpəri, əmudu, tüfəngi, müdafiə silahları olan dəbilqəni, çahar-aynanı, qalxanları məharətlə təsvir etmişdir[5].

---

[1] Təzkirətül- müluk. Tehran hicri 1378-miladi 2000; Münşi İsgəndər bəy. Tarix-i- aləmi-arayi-Abbasi; Rumlu Həsən. "Əhsən-ət-təvarix" x c. Tehran 1349, Baroda 1931; Куми Кази Ахмед. Хуласат ат – таварих. Берлинская рукопись фотокопия ИАИИАНА, инв.№6954, л,40 а; Бидлиси Шараф-хан. Шарафname. Пер.Васильевой Е.И., т.2.М., 1976, с.197.; Романовский Д. Тарихие- и аслехэ-и сард-и дар Иран. Баррасиха- йе тарих-и. Краткая история холодного оружия в Иране. Пер. А. Дадашева, 1968, с.110; və s.

[2] Bakıxanov A. Gülüstani – İrəm. Bakı, 1951, s.252.

[3] Qarabağnamələr. II kitab. Bakı, Yazıçı, 1991, s. 450;

[4] Акты Кавказской Археографической Комиссии. Под ред. А.П.Берже. Тифлис,1875,с.975.

[5] Локкарт Л. История Надир шаха. Критические исследования на основе первоисточников. Лондон, 1938// Пер. с англ. Гезаловой И.Р. Баку, 2004, с.396; İnternet rezurs: Мирза Мухаммад Мехти – хан Астрабади. Тарихи- Джахангушай-йн Надири. Бомбей 1891-1892. 432 рукописи принадлежающих. С-Пб.История Надир шаха.//www.vostlit.ru.

Tədqiqat işində istifadə olunmuş əsas mənbələr sırasında Milli Azərbaycan Tarixi Muzeyinin Silahlar və Bayraqlar fondunda qorunan, maddi mədəniyyət nümunələri olan eksponatlar xüsusi yer tutur. Bu kolleksiyada orta əsr Azərbaycan silahının öyrənilməsində, tədqiq olunmasında mühüm əhəmiyyətə malik hər növ silah nümunələri mühafizə olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat prosesində dissertantın əsas məqsədi kimi Şərq və Azərbaycan silahlarının məhz muzey materialları ilə qarşılıqlı müqayisədə öyrənilməsinin xüsusi əhəmiyyəti vurğulanmış, bununla yanaşı müəllifin qarşısına silahların müxtəlifliyini, onların işlənməsini, hazırlanma qaydasını araşdırmaq və nəzərə çatdırmaq, bu silahların nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da şöhrət tapdığını, Azərbaycan silah ustalarının yüksək peşəkarlığını, bədii zövqünü göstərmək məsələlərinin həll etmək qoyulmuşdur.

Bütün qeyd olunan məsələləri nəzərə alaraq əsas məqsədin icrası üçün dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi də nəzərdə tutulmuşdur:

- Müdafiə silahlarının növlərini, onların istifadəsi qaydalarını, hazırlanması prosesini müəyyənləşdirmək;
- Azərbaycan soyuq silah növlərinin təsnifatını vermək, hər bir növün hazırlanması, istifadəsi qaydasını açıqlamaq;
- Azərbaycanda odlu silah növlərini müəyyənləşdirmək, onların hərb sənətində əhəmiyyətini və rolunu aydınlaşdırmaq;
-Odlu silahln, əsasən topların Azərbaycanda istehsalının araşdırılması;
-Orta əsr Azərbaycan xanlıqlarının iri şəhərlərində silah istehsalı üzrə mərkəzləşmiş emalatxanaların-cəbbəxanaların olmasını müəyyənləşdirmək;
-Tədqiq olunan dövrdə xüsusi silah ustalarının - əsləhəsazların meydana gəlməsinin və onların silah istehsalında yüksək peşakarlıq və təcrübələrinin nəinki Azərbaycan, Cənubi Qafqaz, eləcə də ölkədən kənarda da şöhrət tapmasını vurğulamaq;
-Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasındakı materialların hərb tarixinin öyrənilməsində rolu və əhəmiyyəti göstərmək

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını tarixi təhlil metodu, Azərbaycan silahlarının İran, Rusiya və Qərb silahları ilə müqayisəli təhlili metodu, müxtəlif növ silahların genetik təhlil metodu, funksional təhlil metodu, tarixilik, tarixi materiallara istinadlanma, onlara obyektiv və kompleks şəkildə yanaşaraq nəticələr çıxarmaq, əldə olunan faktları və materialları təhlil edərək ümumiləşdirmələr aparmaq

təşkil edir. Mənbələrin hərtərəfli şəkildə öyrənilməsi və təhlil edilməsi əski bilgilərimizin daha da zənginləşdirilməsinə imkan vermişdir. Beləliklə, istifadə olunan metodlar XVIII-XIX əsrlərdə Azərbaycan silahının əsaslı surətdə öyrənilməsini təmin etmiş və Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasının bir mənbə kimi rolunu bu dissertasiyada nəzərə çatdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Vətən tarixi elmində XVIII-XIX əsrlərdə Azərbaycan silahının araşdırılmasına həsr olunmuş ilk xüsusi tədqiqat işidir. İlk dəfədir ki, 1920-ci il Milli Azərbaycan Tarixi Muzeyi yarandığı gündən Silahlar və bayraqlar fondunun materialları elmi dövriyyəyə çıxarılır. Əlbəttə, ayrı-ayrı tədqiqatçılar bu və ya digər şəkildə öz əsərlərində silahlar haqqında məlumat vermişdir. Lakin daha ətraflı, müfəssəl izahat, silahların inkişaf mərhələləri haqqında ümumiləşdirilmiş tədqiqat işi olmamışdı.Təqdim olunan dissertasiyanın elmi yeniliyi məhz bundadır.

Tədqiqatın əsas məqsədlərindən irəli gələn məsələlər ilk dəfə olaraq bu dissertasiyada öz həllini tapmışdır: Azərbaycanda istifadə olunan müdafiə silahlarının, hücum silah növlərinin, odlu silah növlərinin meydana gəlməsi, onların növləri və adları, istifadə olunması, hazırlanma qaydası, təyinatı, silahların istehsal yerləri, müxtəlif əsləhəsaz ustaların adlarının tapılması. Dissertasiyada Azərbaycan qoşunlarında istifadə edilmiş yaraq növləri daha geniş və hərtərfli öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** XVIII-XIX əsrlərdə Azərbaycanın müdafiə, soyuq və odlu silahlarının öyrənilməsi, hərb tarixinin hərtərəfli surətdə tədqiqi bu dissertasiyanın Vətən tarix elmində mühüm yer tutacağına imkan verir. Dissertasiya materiallarından ümumiləşdirilmiş tarixi tədqiqatlarda istifadə oluna bilər. Bundan əlavə həmin materiallar Qafqaz xalqlarının, Yaxın və Orta Şərq, eləcə də müsəlman ölkələrinin və türk xalqlarının hərbi tarixinin öyrənilməsində rol oynaya bilər. Təqdim olunan materiallar hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsində təbliğat vasitəsi kimi də əhəmiyyətə malikdir. Dissertasiyadan ali təhsil ocaqlarında ümumi və xüsusi kursların gerçəkləşdirilməsində, dərslik və vəsaitlərin hazırlanmasında da istifadə oluna bilər.

Təqdim olunan dissertasiya Azərbaycan xalqının tarixini saxtalaşdırmağa əsassız müddəalarla çıxış etməyə can atan şəxslərə və müəyyən dairələrə qarşı tutarlı, obyektiv tarixi gerçəkləri əks etdirən elmi faktlardan biri kimi əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Heraldika elmi – fond şöbəsinin 9 saylı iclasında müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə araşdırılan mövzunun aktuallığı, dissertasiyanın məqsəd və vəzifələri müəyyən edilmiş, tədqiqat işinin elmi yeniliyi və təcrübi əhəmiyyəti göstərilmiş, problemin mənbəşünaslığının və tarixşünaslığının təhlili verilmişdir.

Tədqiqat işinin "Müdafiə silahları" adlanan birinci fəsli üç paraqrafdan ibarətdir.Bu paraqraflarda müdafiə silahlarının ayrı-ayrı növləri haqqında ərtaflı məlumat verilir. Döyüşçülərin şəxsi müdafiə silahları dəbilqə, əsləhə, qalxan və əlavə müdafiə ünsürlərindən ibarət idi. Müdafiə silahları arasında döyüş baş örtükləri xüsusi yer tutur və Azərbaycanda ən qədim zamanlardan istifadə olunurdu. Azərbayjan konusvari dəbilqələri Qərbi Avropa dəbilqələrindən fərqlənirdi: belə dəbilqə başı nəinki kəsici silahlardan (qılınc,palaş), həm də zərbə silahından (döyüş baltası, şeşpər və s.) yaxşı qoruyurdu. Silah konusvari dəbilqənin üzərindən sürüşür və hündür ucluq düz zərbə endirməyə imkan vermirdi[1]. Əvvəllər dəbilqələr bir neçə metal hissənin birləşməsindən düzəldilirdi, lakin sonralar ustalar dəbilqələri bütöv dəmir (polad) parçasından düzəltməyə başladılar[2]. Dəbilqələrin aşağı hissələrinə metal halqalı toxunma torlar bərkidilirdi. Bu torlar çiyinə düşərək və çənənin altında bağlanaraq boğazı, qulaqları və üzün bir hissəsini, çiyində olan zaman isə həm də çiyinləri qoruyurdu. Döyüşçünün alnını və burnunu qoruyan bu zirehlərin ön tərəfi 5 sm-dən 8 sm- ə qədər, iki tərəfdən uzunluğu sinəyə qədər, arxa tərəfdən isə kürək hissəyə qədər olurdu. Burunluq sifəti köndələninə vurulan zərbədən xilas edirdi. Burunluq bəzən dəbilqə ilə bir hissədən, bəzən isə dəbilqəyə ayrıca bərkidilirdi.[3]

Ümumiyyətlə, ilk orta əsrlərdə Azərbaycanda 3 dəbilqə növü tətbiq edilirdi: sferik dəbilqələrin iki növü (yarımkürəvi və yumurtavari) və konusvari dəbilqələr. Azərbaycanda XVII – XVIII əsrlərdə istifadə edilən dəbilqələrin formaları dövrə aid Azərbaycan miniatürlərinin təsvirləri və dünya muzeylərində qorunan dəbilqələr və Milli Azərbaycan Tarixi

---

[1] Робинсон Х.Р. Доспехи народов Востока.История оборонительного вооружения. Москва, Центрполиграф, 2006, с.41,57.

[2] Денисов М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М.,1953, с. 52.

[3] Бобров Л.А. Железные ястребы Мавераннахра. Часть1, 2// Para Bellum № 2(18), с.42.

Muzeyinin materialları əsasında öyrənilir. Burada 35 ədəd dəbilqə mövcuddur və üzərindəki yazılar Azərbaycanın bu və ya digər şəhərində düzəldildiyini (çox zaman Təbriz və Şamaxı) sübut edir. Bu dəbilqələrdən 9 ədədi XVIII-XIX əsrin əvvəllərinə aid edilir.

Birinci fəslin ikinci paraqrafında bədəni qoruyan zireh və cahar-aynalardan bəhs edilir. Əsləhə bədəni qoruyan əsas hissədən və döşü, qarın nahiyəsini, əl-ayaqları qoruyan əlavə hissələrdən ibarət idi.Halqalı zireh növləri müdafiə geyimləri sırasında uzunmüddətli silah növü hesab edilir. Azərbaycan ustaları zərbəyə davamlı, lakin nazik və yüngül, hərəkətə mane olmayan bir əsləhə yaratmaqda mahir idilər. Müdafiə sipərlərini üç növə ayırmaq olar: yumşaq, bütöv dəmir və halqalı. Halqalı zireh- metal halqalardan ibarət olan, köynək quruluşlu, soyuq silahdan qorunmaq üçün istifadə olunan hərbi geyim növüdür. 15-20 min halqadan ibarət olan sıx toxunmuş zirehləri ox, yüngül nizələr, qılınclar deşə bilmirdi. Uzun zirehləri piyadalar, qısa, ətəyində kəsikləri olan zirehi isə atlılar gəzdirirdilər.[1] Orta əsrlərdə Azərbaycanda zirehin altında "çokal" (türkcə), "kaj aqand" (ərəbcə), "qaz-ağand" (farsca) adlanan, başdan-başa sırınmış və astarına pambıq, ipək xamna material çəkilmiş qalın köynək geyirdilər. Halqalı zirehlərdə 15 mindən az olmayaraq, bəzən də 20 minədək halqa olurdu. Uzunluğundan və enindən asılı olaraq zirehlərin halqalarının böyüklüyü, onların çəkisi də müxtəlif olurdu: daha qədim əsləhələr 12-16 kq, son dövr əsləhələri isə 5 kq-dan 9 kq-a qədər olurdu.[2] Son orta əsrlərdə Azərbaycanda zirehlər iri və xırda lövhələr sistemindən ibarət olur, halqalar vasitəsilə bir-birinə birləşən və nəticədə 3, ən çoxu 5 halqa enliyində halqavari hörmə yaradırdı[3]. Beləliklə, halqalı əsləhə növlərini tətqiq etdikdə bu qənaətə gəlmək olar: ilk əvvəllər halqalı əsləhələr kəsikdə dəyirmi olan polad halqalardan düzəldilirdi. Hər halqanın ucu qaynaq üsulu ilə birləşdirilridi. Bu cür halqalar asan yığıldığından orta əsrlərdə polad halqaların ucları əzilir, onlarda dəliklər qoyulur, bu dəliyə mismar keçirilir və bərkidilirdi ("bir mismara birləşdirmə üsulu"). Halqalı əsləhənin bütün nümunələri ənənəvi olaraq Azərbaycanda etibarlı silah növü sayılırdı. O, döyüşçünü kəsici silah zərbələrindən qoruyur, havanı keçirir (isti iqlimə görə), yüngül və mütəhərrik (elastik) olurdu (onu qatlayıb kiçik çantada daşımaq mümkin idi), onun çəkisi insan bədəninə bərabər paylaşırdı. Bu keyfiyyətləri halqalı

---

[1] Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древ нейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, c.280.

[2] Денисова М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М., 1953, с.60.

[3]Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древ нейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, c.280.

zirehin Azərbaycanda geniş yayılmasına səbəb olurdu və təsadüfi deyil ki, Milli Azərbaycan Tarixi Muzeyində bütün halqalı əsləhə növlərinə rast gəlmək mümkündür.[1]

Döyüş zamanı müdafiə hissələrindən olan ayna, sinəbənd, qurşaqdan istifadə edilirdi. Zirehin üstündən əlavə müdafiə silahı olan döşlük taxılır, sonrakı dövrlərdə bu döşlük çahar- aynaya (fars.) çevrilirdi.[2] Sinəbənd müdafiə silahları qrupuna aiddir, döyüşçünün sinəsini, yan tərəflərini soyuq və odlu silah hücumlarından qoruyurdu.[3] Əlavə müdafiə ünsürlərindən olan yalnız ayna inkişaf edərək yeni forma almışdı. Belə ki, orta əsrlərdə kəmərlərlə sinədə asılan dəyirmi lövhə olan ayna güzgü parıltısınadək pardaxlanırdı (onun "ayna" adı da məhz buradandır). Pardaxlanandan sonra lövhələrin iç tərəfinə astar vurulur, və lövhələr bir-birinə gön kəmərlər vasitəsilə birləşdirilridi. Bu müdafiə vasitəsi "cahar - ayna" ("dörd ayna") adı ilə XIX əsrin 30 - 40 - cı illərinədək tətbiq olunmuşdur[4]. Dövrün ən bahalı əsləhə növlərindən olan çahar-ayna (çəkisi 5-7 kq) adətən digər əsləhə növlərinin üstündən geyilirdi. Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasında qorunan və yuxarıda təsvir edilən çahar-aynalara oxşar nümunələr Gəncə tarix - diyarşünaslıq muzeyində (2 ədəd) mühafizə olunur.

Bu paraqrafda erkən orta əsrlərdən Azərbaycanda "kalkan" (qalxan), "sipər", "turs" adlanan adi qalxan növləri, metal və dəri qalxanlar haqqında da məlumat verilir.Qədim dövrlərdən Azərbaycan döyüşçüsünün ən vacib müdafiə vasitələrindən biri də qalxan olmuşdur. Qalxanlardan həm süvari dəstələrdə, həm də piyada qoşunlarda istifadə olunurdu. Piyadalar böyük qalxanlardan da istifadə edirdilər. Qalxanlar dəmirdən, ağac və dəridən düzəldilirdi. Bu ağac qalxanların səthi metalla örtülürdü, mərkəzdə gözəl bəzədilmiş umbon yerləşdirilirdi. Belə qalxan hər hansı bir zərbədən qoruya bilirdi. Polad qalxanlar gön qalxanlara nisbətən kiçik ölçüdə düzəldilirdi. Çünki onlar kifayət qədər ağır çəkili olurdu. Digər tərəfdən, onların kiçik ölçülü olmasının bir səbəbi də ondan ibarətdir ki, qalxanların qalınlığı azalmasın. Əgər böyük ölçülü qalxan düzəltmək lazım gəlirdisə, onda poladın daha nazik olması məqsədəuyğun idi. O zaman qalxanın möhkəmliyi (etibarlılığı) nəzərəçarpacaq dərəcədə azalırdı. Milli Azərbaycan Tarixi

---

[1] Əhmədov S. ATM müdafiə geyimləri (zireh, dər və bədən). Azərbaycan Tarixi Muzeyi – 80 il. Bakı, Elm, s.129.

[2] Бобров Л.А. Железные ястребы Мавверанахра. Часть1, 2// Para Bellum № 2(18), с.75.

[3] Новейший энциклопедический словарь. Москва. Аст, Астрель,Транзиткига, 2004, с. 563.

[4] Винклер фон П. Оружие.Москва,1992,с.252.; Гордеев Н.В. Русский оборонительный доспех // Государственная Оружейная Палата Московского Кремля.Сб.статей.М., Искусство,1954,с.105.

Muzeyində 30 sayda qalxan saxlanılır. Onlar arasında polad və gön qalxanlar mövjuddur.

Üçüncü paraqrafda əlavə müdafiə ünsürləri olan qolçaqlardan bəhs olunur. Bədənin daha çox zərbələrə məruz qalan üzvləri (qollar və ayaqlar) əlavə müdafiə hissələri ilə qorunurdu. Əsləhə komplektinə daxil olsa da bu hissələr yaraq hesab olunmurdu.Müdafiə elementlərindən biri də qolçaqlar, başqa sözlə bazubəndlərdir. Bədənin daha çox zərbələr məruz qalan üzvləri (döş, qarın nahiyyəsi, qollar, ayaqlar) əlavə müdafiə hissələri ilə qorunurdu. Qolçaq və ya bazubənd orta əsr müdafiə silahları qrupuna aid olan, döyüşçünün qollarını örtən metal lövhələrdir[1]. Qolçaq əsas hissədən və əlavə ünsürlərdən ibarət olurdu. Qolçağın əsas hissəsi uzunsov trapesiya kimi qabarıq şəkildə əyilmiş polad lövhədən hazırlanırdı. Lövhənin dirsək hissəsi ya dəyirmi, ya da ucu şiş olurdu, bilək hissəsi isə azacıq yuxarı əyilirdi ki, döyüşçünün hərəkətləri zamanı biləyi zədələməsin[2]. Milli Azərbaycan Tarixi Muzeyinin qolçaq kolleksiyası 15 ədəd tək və bir ədəd cüt qolçaqlardan ibarətdir.

Əlavə müdafiə elementlərindən biri də polad ayaqlıqlardır. Bu polad ayaqlıqlar döyüşçünün müdafiə kompleksini tamamlayırdı.Milli Azərbaycan Tarixi Muzeyində XVI əsrə aid edilən ayaqlıqlar mühafizə olunur. "Ayaqlıq" anlayışı ilə baldırı zərbələrdən qorumaq üçün nəzərdə tutulan müdafiə silahı bildirilir.

Dissertasiyanın "Soyuq silahlar"adlanan ikinci fəsli dörd paraqrafdan ibarətdir. Düşmənin məhv edilməsi üçün nəzərdə tutulan hücum silahları yaxın (3 m-dək) və uzaq məsafəli döyüş sılahlarına bölünür. Növünə və təyinatına görə soyuq silahlar müxtəlifdir. Təyinatına görə soyuq silah aşağıdakı növlərə bölünür: kəsici-batırıcı silahlar, batırıcı, zərbə silahları və zərbə-doğrayıcı silahlar. Quruluşuna görə soyuq silahlar saplı və monolit (bütöv) növlərə ayrılır[3]. Birinci paraqrafda kəsici-batırıcı silahlar (müxtəlif növ qılınclar, şaşqalar, qəddarə və xəncərlər) göstərilmişdir. Soyuq silahlar arasında kəsici-batırıcı silahlardan ən geniş yayılmış növü qılınclardır. Qılınc düz iki kəsərli tiyədən, çarpaz xaçdan, dəstəkdən və dəstəyin başından ibarət olurdu. Qılıncların çarpaz xaçlığı iki növdə: düz və aşağıya doğru əyilmiş ucluqlu olurdu. Xaçlıqlı qılınclar at üstündən rəqib döyüşçünü yaralamaq və məhv etmək, kəsmək üçün daha əlverişli silah sayılırdı.

---

[1] Новейший энциклопедический словарь. Москва. Аст, Астрель,Транзиткига, 2004, с. 846.

[2] Робинсон Х.Р. Доспехи народов Востока.История оборонительного вооружения.Москва,Центрполиграф,2006,с.47.; Boeheim Wendalen.Handbuch der Waffenkunde Leipzig. Verlaq von e/A/Seemann. 1890. 165 p.

[3] Горелик М.В. Оружие Древнего Востока.М., 1993,с.297.

Qılıncların forması müdafiə yaraqlarının və döyüş qaydalarının inkişaf prosesindən asılı olaraq dəyişirdi. Əsas meyar kimi tiyənin kəsikdə olan forması, tiyənin əyilmə dərəcəsi, dəstək oxunun tiyə oxuna nisbətən əyilmə dərəcəsi, ucluğun xüsusiyyətləri nəzərə alınırdı.[1] Düz tiyəli, enli qılınclar yalnız kəsmək üçün yarayırdı. Bir qədər əyilmiş, sivri ucluqlu, sona doğru nazilən tiyəli qılınclar isə rəqibi nəinki kəsmək, həm də deşmək qabiliyyətinə malik idi.Əyri qılınclar soyuq silahın ən mükəmməl növü sayılır. Sivri qılınc öz əyri tiyəli formasına görə düz tiyəli qılıncdan üstün idi. Çünki əyri tiyə daha çox doğrama qabiliyyətinə şərait yaradırdı. Əyritiyəli qılınclar (kılıç) orta əsr şəhərləri Qəbələ, Dərbənd, Şabrandan və Yurdçu (Şərur) yaşayış yerlərindən də məlum olmuşdur.[2] Əyritiyəli qılınc (kılıç) bir və ya ikiağızlı əyri tiyəsi olan doğrayıcı - batırıcı silah sayılır. Bu silah düz perpendikulyar zərbə zamanı hər iki mərhələni, yəni obyektin doğranması və obyektdən tiyənin çıxarılmasını yerinə yetirməyə imkan verir. Düztiyəli qılınc və yaxud palaşla zərbə endirildikdə silahı obyektdən əlavə səylə çıxarmaq lazım olurdu. Əyritiyəli qılıncla isə zərbə vurulduqda əyri tiyə obyekti doğrayır və hərəkəti davam etdirərək obyektdən çıxır. Bütün Şərqdə qılıncın populyarlığı onun yalnız döyüş səmərəliliyi ilə deyil, həm də forması - aypara şəklində olması ilə şərtlənmişdi. Ensiz və qalın,çox əyri tiyəli qılınclar "şəmşir" adlanırdı, farscadan tərcümədə "şir caynağı" deməkdir.[3] Fəxri silah olan qılınc ənənəvi olaraq türk dövlətlərində hakimiyyət simvolu sayılırdı. Hakimiyyət rəmzi sayılan qılınclar həm də bahalı hədiyyələr timsalında xələt verilir və hədiyyə olunurdu.[4] Şaşqalar da kəsici - batırıcı silahlara aiddir. Şaşqa sırf Qafqaz silahı sayılırdı.[5] Müasirlərin qeydləri və şəkillərində şaşqaların əsasən ölkənin dağlıq və dağətəyi vilayətlərinin döyüşçüləri tərəfindən istifadə olunduğunu göstərir.Müxtəlif mərasimlər, təntənəli görüşlər üçün nümayiş silahlarından istifadə olunurdu. Bu silahlar xüsusi diqqətlə bəzədilir, zəngin ornamentlərlə naxışlanırdı.[6] Kəsici- batırıcı silahların daha bir növü xəncərlərdir. Xəncər ikiağızlı düz tiyəli olan kəsici - batırıcı silahdır. Bu

---

[1] Соловьев А.И. О некоторых характеристиках клинкового оружия.// Проблемы реконструкции в археологии. Новосибирск, 1985, с. 147.

[2] Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycan orta əsr silahları. Bakı, Elm, 2005, s. 80.

[3] Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древ нейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, с.269.

[4] Qarabaği Mirzə Yusif.Tarixi-safi.Qarabağnamələr II kitab. Bakı,Yazıçı,1991, s.450.

[5] Кавказское оружие. Гос. Истор.Музей России.М.,1987,с.32

[6] Мишуков Ф.Я. Золотая насечка и инкрустация на древном вооружении // Государственная Оружейная Палата Московского Кремля. Сб.статей.М., Искусство,1954. с. 117-119; Робинсон Х.Р. Доспехи народов Востока.История оборонительного вооружения. Москва, Центрполиграф, 2006.

silahda tiyənin işlək hissəsi ucluğa keçən iki paralel tərəflərlə təşkil olunmuşdu. Xəncər sadə bıçaq kimi düz və ya əyilmiş tiyəlidir, həmişə, hər yerdə sıx, əlbəyaxa döyüş silahı kimi rol oynamışdır. Əlbəyaxa döyüş silahı kimi xəncər digər silahlar kifayət qədər effektli olmadıqda tətbiq olunurdu: təkbətək döyüşdə, dar yerdə, toqquşmada, qəfil və səssiz həmlələrdə. Peşəkar döyüşlərdə xəncər əlavə silah kimi, yığma qoşunun döyüşlərində əsas silah kimi çıxış edirdi. [1] Şərq xəncərləri Qərb xəncərlərindən formasına və işlənməsinin müxtəlifliyinə görə ilə fərqlənirdi. Hər bir xalqın əlbəyaxa döyüşdə işlətdiyi hərəkətlərə uyğun olurdu. Tiyələr deşmək üçün düz, dar, bir tərəfi kəsərli hazırlanırdı. Doğramaq və batırmaq üçün xəncər enli və ikitərəfi kəsərli olurdu. Xəncər hazırlanarkən əsas diqqət möhkəmliyə və metalın son dərəcə yaxşı döyülməsinə yönəldilirdi. Zirehli toxunmaları deşmək üçün işlədilən xəncərlərin itiliyi, kəsərləri konus və ya çox uclu formasında gücləndirilirdi. Fəslin ikinci paraqrafında batırıcı silahlar təhlil edilir. Bu növ silahlar nizə və zubinlərlə təmsil olunur. Batırıcı silahlara nizə, mizraq və zubinlər aid edilir. Nizələr, mizraqlar forma və təyinatına görə çox müxtəlif olurdu.Ağır silahlı süvarilər dar, uzadılmış, adətən də uzun taxtaya keçirilən dördtilli ucluqlu nizələrə üstünlük verirdilər. Taxta sapları 3 - 4 m uzunluğunda olurdu.[2] Nizə - uzun sapı və onun üzərinə taxılmış döyüş ucluğu olan, həm piyada, həm də süvari döyüşçülər tərəfindən tətbiq edilmiş, batırıcı silah növüdür.[3] Ucluğun ölçüləri və sapın uzunluğu dövrün taktikasından, lələyin forması və düşmənin müdafiə geyimindən asılı olurdu. Yastı, yarpaqvari və neştərşəkilli ucluqlardan zirehsiz və yaxud yüngül yaraqlanmış düşmənə qarşı istifadə edilirdi. Tilli rombvari, dəyirmi və iynəyarpaqlı ucluqlar yarağı deşmək üçün nəzərdə tutulurdu. Uzun və ağır olduğuna görə nizəni atmaq olduqca çətin idi və buna görə də nizə atılmaq üçün tətbiq olunmazdı.[4] Mizraq hərb alətidir, “kiçik nizə” deməkdir, qısa və yüngül sapı, onun üzərinə taxılmış yüngül döyüş ucluğu olan və əsasən süvarilər tərəfindən tətbiq edilmiş atma, batırıcı silah növüdür.[5] Sapla birlikdə mizraqın uzunluğu 1-1,5 sm-ə bərabər idi. Mizraqlar adətən atın yəhərinə bağlanan və ya döyüşçünün kəmərinin sol tərəfindən asılan və “cərid” adlanan qında daşınırdı. Orta əsrlərdə Azərbaycan ərazisində nadir

---

[1] Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycan orta əsr silahları. Bakı, Elm, 2005, s. 84.
[2] Шпаковский В.О.Рыцари Востока.М., «Поматур», 2002,с.62.
[3] Денисов М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М.,1953, с. 38.
[4] Əhmədov S.Ə.Azərbaycanın XIV-XVI əsrlərdə əlbəyaxa döyüş silahları.Hərbi bilik,1998, №3, s.85.
[5] Bax: D-r Moin Məhəmməd. Fərhənge-Moin,III cild.Tehran,hicri 1378-miladi 2000,s.406; Денисов М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М.,1953, с. 39-40; Əhmədov S.Ə.Azərbaycanın XIV-XVI əsrlərdə əlbəyaxa döyüş silahları.Hərbi bilik,1998, №3, s.85.

silah növündən - zubindən (jubindən) istifadə edilirdi.[1] Bu silah formasına görə döyüş yabasını, ölçü və çəkisinə görə isə mizrağa bənzəmiş və həm batırıcı silah, həm də atma - batırıcı silah kimi istifadə edilmişdir.[2] Adından göründüyü kimi bu növ ucluqlar atmaq üçün istifadə olunurdu. ("Zubin" adı ilə tanınmış mizraq ucluqları düşmənin geri çəkildiyi və təqib olunduğu zaman işlədilirdi). Bu məqsədlər üçün işlədilən ucluqlar daha yüngül idi və mizraqların uçuşunun  sürəti yüksək olurdu. Zubinlər nizə ucluğundan 2-3 lələkli olması ilə fərqlənir, zubin ucluğunun ləl期ləri hamar, düz, ya da dalğavari olurdu. Həmin ucluqlar daha yüngül olduğundan  onların sürəti çox yüksək olurdu.Milli Azərbaycan Tarixi Muzeyində XIX əsrin əvvəlinə aid olan zubin növü saxlanılır. Bu iki iti uca ayrılan, 31,5 sm uzunluğu olan yastı lələkdir. İkidişli zubindən əlavə diş-diş olmuş zubinlərdən də istifadə olunurdu. Bu paraqraflarda məsafəli silahların hazırlanma texnikası, onların quruluşu, təyinatı haqqında müfəssəl məlumat verilir.  Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasındakı bir neçə üç - dişli nizə, tiyəsi xəncər formalı nizə ucluqları, zubinlər göstərilmişdir.Ayrıca cədvəldə onların dekorativ bəzəkləri qeyd olunur. Batırıcı silahlardan olan bıçaqların təsnifatı təhlil edilmişdir.Üçüncü paraqrafda XVIII əsrin sonu - XIX əsrin əvvəlinə aid zərbə silahları olan toppuz, əmud və şeşpər nümunəsində təhlil olunur. Əmud, toppuz və gürzlər formasına, çəkisinə və ölçüsünə görə fərqlənirdilər. Məsələn, "Mustafiyya" adlanan dördkünc dəmir başlıqlı və uzunluğu 80-100 sm olan toppuzlar bunlara misal göstərilə bilər.[3] Muzey nümunələri və miniatür rəsmlər göstərir ki, "Mustafiyya" adətən iki əl ilə tutulurdu. Bir sıra "mustafiyya" nümunələri kürəvari, içi boş polad başlıqdan və polad dəstəkdən ibarət olurdu. Belə bir nümunə Milli Azərbaycan Tarixi Muzeyinin Bayraqlar və silahlar fondunda 948/80 inventar sayı altında saxlanılır. Üzərində həndəsi ornamentlər, nəbati naxışlar, quş təsvirləri olan bu "mustafiyya"nin ümumi uzunluğu 105 sm, kürənin ölçüsü 51 sm-dir. Dəstəkdə üç yerdə kəmər kimi cızıqlı halqalar vardır.Bu paraqrafda toppuzların müxtəlif növdə olmalarından, onun zoomorf başlıqlı tiplərindən, əmudların döyüşlərdə istifadə olunmasından, bu toppuzların döyüşdə düşmənə həm də psixoloji cəhətdən təsirindən bəhs olunur. Bu dövrdə toppuz və şeşpərlər ağir silahlı süvari qoşunlarinin silahı kimi işlədilirdi. Şeşpərlər Şərq ölkələrində hakimlik rəmzi kimi də geniş

---

[1] Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древнейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, с.275.
[2] Əhmədov S.Ə. XIII-XV əsrlərdəAzərbaycanda hərb sənəti tarixi.t.e.n. aftoreferatı, Bakı,2001,s.21.
[3] Юнусов А. История военного дела в Азербайджане в IX- в начале XIII вв. рукопись к.и.н. Баку, 1986, s.11.

yayılmışdı. Türk ordusunda şeşpər, toppuz və gürzlər böyük hərbi hissələrə başçılıq edən paşaların, tumenlərin başçılarının hakimiyyət rəmzi idi.

Fəslin dördüncü paraqrafında zərbə-doğrayıcı silahlardan bəhs olunur. Bu növ silahlar təbərzinlər və baltalar timsalında təhlil olunur. Əsasən piyada qoşunlarının silah kompleksində istifadə olunan təbərzinlər universal səciyyə daşıyırdı. Hər iki tərəfi iti olan, başındakı şiş ucla deşmək, kvadrat başlıq ilə zərbə endirmək qabiliyyətinə malik təbərzinlər qılıncın kəsmək və doğramaq, xəncərin deşmək, toppuzun zərbə endirmək xüsusiyyətini özündə cəmləşdirmişdi. Təbərzinlər əsasən piyadaların yaraqlarında olurdu, çünki ağır idi, böyük ölçüsü vardı, zərbənin vurulması üçün iri hərəkətli qolaylama lazım idi.

Beləliklə, orta əsrlərdə silahların içərisində soyuq silahın bütün növləri çox əhəmiyyətli yeri tutmuşdur. Bunu həmin dövrün mənbələri, bir sıra miniatür rəsmləri, "Şəki xan sarayı" nın divar rəsmləri, eləcə də Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında olan nümunələr bir daha sübüt edir.[1]

Dissertasiyanın "Odlu silahlar" adlanan üçüncü fəsli üç paraqrafdan ibarətdir. Birinci paraqrafda toplar, onların yaranması, istifadəsi haqqında məlumar verilir. Burada mərmilərin, barıtlı silah növlərindən lüləli odlu silahların, Azərbaycanda ilk dəfə lüləli odlu silahın istifadə tarixinin müəyyən olunması məqsədilə dövrün mənbələri təhlil edilir.

Birinci paraqrafda odlu silahın növlərində olan toplar haqqında bəhs olunur. Azərbaycan artilleriyası XVIII əsrin sonu-XIX əsrin əvvəllərində səhra, qala və mühasirə topları ilə təmsil olunurdu. Səhra artilleriyası özündə iri və kiçik ölçülü toplar olan zənburəkləri və təkərli topları birləşdirirdi. Qala arilleriyası zənburəklərdən və səhra toplarının lafetli növlərindən və mortiralardan ibarət idi. Mortiralar ballistik keyfiyyətlərinə görə "dig" və xarici görünüşünə görə "qazan" adlandırılırdı. Mortirlər enli, qazan formalı lüləyə və özündə dayaq lövhəsini bildirən sadə lafetə malik idi.Mortirlər qoşunda arabalarda daşınırdı. Fətəli xan Qubalının qoşununda topların arabalarda daşınması haqqında məlumat xanlıqların qoşunlarında mortiraların olduğunu göstərir[2]. XVIII əsrin sonu XIX əsrin sonu silah istehsalı sənətkarlıqda mühüm sahələrdən biri olmuşdu. Ölkənin xanlıqlara bölünməsi, xanların lakal və xarici düşmənlərlə mübarizəsi silahlı qüvvələr saxlamağı və bu ordunu silahla təchiz etməyi zəruri edirdi. Buna görə də

---

[1] Salamzadə Ə.R.Məmmədzadə K.M. Şəki xanlarının sarayı. Bakı, Elm, 1986,s.60-61.
[2] Hacınski İ. Qubalı Fətəli xanın həyatı. Bakı,1959, s.25.

silah emalatzanalarının-cəbbəxanaların şəbəkəsi genişlənir və təcrübəli silah ustaları-əsləhəsazları meydana çıxırdı.

Silahlar ayrı-ayrı ustalar tərəfindən düzəldilirdi ki, ustaların hər biri öz biliyini gizli saxlayırdı. Silahı hazırlayan usta adətən döyüşdə ona qulluq edirdi. Ona görə də topçular süvari əsgər deyil, xüsusi sexin ustaları sayılırdı.[1]

Topların qala variantında top altlığı olmurdu və onlar sadə özül üzərində yerləşdirilirdi. Kiçik kalibrli qala topları "zənburəklər" adlanırdı. Xanlıqlar dövründə Lahıcda kiçik qala topları - "zənburəklər" istehsal edilirdi.

Qala və mühasirə artilleriyasına yer səthinə paralel olaraq, müəyyən hündürlükdə atəş açan topdan başqa, dik atəş topu olan mortiranı, yəni qısa lüləli top da daxildir.[2] Beləliklə, XVIII əsrin sonunda - XIX əsrin əvvəllərində Azərbayjanda artilleriya səhra, qala və mühasirə atəşi silahları ilə nümayiş etdirilirdi. Azərbaycanda odlu silahın bir növü olan səhra, qala topları, zənburəklər kifayət qədər inkişaf etmişdi və bu dövrün hərbi texnikasının tələblərinə cavab verirdi. Səhra artilleriyası özündə iri və kiçik zənburəkləri və təkərli altlıqlardakı topları birləşdirir.Qala artilleriyası zənburəkləri, həmçinin səhra toplarının altlıqlı variantlarını, dik atəş açan topları - diği əhatə edirdi. Mühasirə artilleriyası təkərli, arabalı toplarla və diğlərlə diqqəti cəlb edirdi.

Tədqiqatda Azərbaycanda toptökmə sənətinin silah ustaları tərəfindən tətbiq olunmasından da bəhs edilir. Ayrı-ayrı toptökmə ustalarının adları çəkilir, Qarabağ, Təbriz, Şamaxı, Lahıc, Kubaçi məktəblərinin təcrübəsindən, hər bir məktəbin xüsusiyyətləri vurğulanır. Bu fəslin yazılmasında AMEA müxbir üzvü O.Əfəndiyevin monoqrafiyalarından geniş istifadə olunmuşdur[3]. Təkərli topların ətraflı izahı XVIII əsrdə yaşamış, Nadir şahın saray tarixçisi olmuş miniatürçü-rəssam Mirzə Mehdi Astrabadinin "Tarix-i cahangoşey-i Nadiri" əsərinə çəkildiyi miniatürlər əsasında verilmişdir. Zənburəklər Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasındakı nümunələrlə təhlil edilmişdir.

Bu fəslin ikinci paraqrafında tüfənglər təhlil edilir. Fitilli və çaxmaqdaşlı tüfəng tiplərindən, tüfənglərin hazırlanmasından, istifadə qaydasından, açarların müxtəlif nümunələrindən bəhs olunur. İlk əl odlu silahı uzunluğu 61 sm - ə yaxın, 1 metr uzunluğu olan, torpağa söykənən quyruqlu, qısa, dəmir borusu olan əl kulevrini olmuşdur. Sonralar kulevrinlər daha uzun

[1] Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку,1980, с.80.
[2] Salamzadə Ə.R., İsmayılov M.A.,MəmmədzadəK.M. Şəki xanlarının sarayı. Bakı, Elm, 1987,s.54.
[3] Эфендиев О. Азербайджанское государство Сефевидов. Баку,1981 с.306.

düzəldilir və atışma zamanı onun ağız hissəsi torpağa dirənirdi. Atışma mənzilini böyütmək üçün silah ustaları lüləni uzatmağa başladılar və beləliklə atışmada qaytarılma çox böyüyürdü. Bu qaytarılmanı aradan qaldırmaq məqsədilə lülənin altına ağır, iri qarmaq (qənarə) düzəldirdilər. Bu qarmaq dayağa birləşdirilirdi. Ağır əl odlu silahı belə yarandı.[1] Milli Azərbaycan Tarixi Muzeyində belə növə aid tüfəng qorunur. Silahlar və bayraqlar fondunun 110 saylı tüfənginin lüləsi poladdandır, ağız hissəsi içəri tərəfdən dairəvidir, kənar tərəfləri səkkiz tillidir.Lülə qundağa bilərziklərlə bərkidilmişdir.Tüfəngin qundağı taxtadandır, üzərində kəsmə naxışlarla bəzədilmiş ornamentləri vardaır. Tüfəngin sancmaq üçün dayağı vardır. Tüfəngin uzunluğu – 210 sm., dayağın yaynluğu – 68 sm.-dir. Odlu silahla silahlanmış döyüşçülər sol çiyinləri üzərindən qayış və yaxud halqavari qayış olan fişənglik gəzdirirdilər. Azərbaycan odlu silahının səciyyəvi jəhətləri də var idi. Bu cür tüfənglər çox yüngül, əsasən çinar ağajından hazırlanan, düz, oval formada qundaqlı, sümük qundaqlı olurdu. Şərq tipli, çaxmaqdaşlı açarlar şırımlı çaxmağa malik idi. Tüfənglərin lülələri və açarları çox zaman qızılı naxışlarla bəzədilirdi. Lülələr sadə poladdan və müxtəlif uzunluqda qaynaq olaraq düzəldilirdi.

Üçüncü paraqrafda odlu silah nümunələrindən olan tapancalar haqqında məlumat verilir. Açarların hazırlanması baxımından tapancalar da tüfənglərlə eyni qaydada düzəldilirdi. Tapancaların sistemi və işlənməsi də tüfənglər kimi idi. Tapancaların dəstəkləri həmişə kürə formalı olur, ağ sümükdən və yaxud qara savatla minalanmış, içi boş gümüşdən düzəldilirdi. Tapancaların başqa müxtəlif növləri Qafqaz, həmçinin Azərbaycan tüfənglərinin qundağı kimi nazik və düz dəstəkli olurdu. Çox zaman həm tüfənglərin, həm də tapancaların qundaqlarına qara, yumşaq dəri, meşin növü olan şaqren çəkilirdi [2].

Odlu silah (tüfəng və tapancalar) Gürcüstanda (Tiflisdə), Dağıstanda (Xarbuk aulunda), Şamaxıda, Lahıcda və b. yerlərdə istehsal olunurdu. Xarbuk kəndində lülələr və açarlar müxtəlif ustalar tərəfindən düzəldilirdi, sonra isə əgər bəzədilmiş detallar əvvəlcədən kubaçililərdən alınmışdısa, silah yerindəcə yığılırdı. Başqa hallarda tüfəng və tapancalar son olaraq Kubaçidə quraşdırılıb bəzədilirdi [3].

Hələ XIX əsrin I yarısında Lahıcda tüfəng və tapanca ustaları arasında ən məşhuru usta Əbdürrəhim olmuşdur. Onun düzəltdiyi tüfəng və

---

[1] Мамедов С. История войн и военного исскуство Азербайджана.(с древ нейших времен до XVIII в.) Баку – Nafna Press, 1997, с.290.
[2] Денисова М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. М., 1953, 129 с.
[3] Служивый. Очерки покорения Кавказа. СПб-1901г. 99 с.

tapancalar yüksək keyfiyyəti ilə seçilirdi. O, öncə qaynaq olunmuş poladı, sonra isə tüfəng və tapancaların lülələrini hazırlayırdı. Usta Əbdürrəhimin məhsulları hətta Azərbaycanın hüdudlarından kənarda da yüksək qiymətləndirilirdi.[1] Azərbaycanda odlu silah istehsalının qədim kökləri vardır. Hələ, XV əsrin II yarısında Təbriz ətrafında -Beşkuydə, geniş bir sahədə odlu silahın istehsalının əsası qoyulmuş, silah ustalarından başqa kənar şəxslərin bu əraziyə daxil olması qəti qadağan olunmuşdu. Qaynaqlarda hələ 1529 –cu ildə Təbrizli toptökən Şeyxinin adına təsadüf olunur. O həm top tökmə ustası, həm də topçu idi. 1582-ci ildə təbrizli Bərxudar bəy və Murad bəy ağırlığı 2800 batman olan toplar hazırlamışdılar[2]. Övliya Çələbi Qərbi Azərbayjanda, Araz çayının sahilində barudxanə, yəni "barıt istehsal edilən yer" adlanan ərazi haqqında məlumat verir.[3] O deyirdi ki, bu yerin belə adlanması barıt hazırlanması üçün kükürdün çıxarılması ilə bağlıdır. Xanlıqlar dövründə Azərbaycanın Naxçıvan, Ордубад, Şəki, Şuşa, Dərbənd və s. şəhərlərində də silah istehsalı geniş yayılmışdı[4]. Naxçıvan xanlığında silah istehsalı ilə əsasən Naxçıvan və Ordubad şəhərlərində məşğul olurdular. Bu şəhərlərin hər birində üç adam tüfəng, üç adam isə tüfəng qundağı hazırlayırdı[5].

Odlu silahların hazırlanmasında ən vacib mərkəzlərdən biri də Şamaxı şəhəri olmuşdur. Belə ki, metal vasitələr istehsalında mövjud olan ənənələr, adətən, silah işinin inkişafına da təsir göstərmişdi. Odlu silaha olan tələbatın artması mahir Şirvan ustalarının ixtisaslaşmasına gətirib çıxardı. Şamaxı xanlığında silahqayırma başlıca olaraq üç mərkəzdə - Şamaxıda, Ağsuda və iri sənətkarlıq mərkəzi olan Lahıc kəndində mərkəzləşmişdi. Öyrənilən dövrdə Lahıcda səkkiz silah "zavodu" emalatxana mövcud idi və bu emalatxanalar əsasən tüfəng və tapanca istehsal edirdi. Lahıcda istehsal edilən silahlar yüksək keyfiyyətli idi və buna görə də Azərbaycanın Şəki, Quba, Qarabağ, bakı və s. xanlıqları ilə yanaşı Dağıstana və hətta İrana da ixrac edilirdi [6].XIX əsrin əvvəllərinə aid məlumatlarda göstərilir ki, şəhərdə 12 nəfər tüfəng qundağı hazırlamaqla, 3 nəfər tüfəng lülələrinə naxış vurmaqla məşğul idi. Hələ XVIII əsrin 70-ci illərinin sonu-80-cı illərinin əvvllərində Cənubi Qafqaza hərbi yürüşə rəhbərlik edən A.V.Suvorov Şamaxıda və Bakıda qala və səhra toplarının

---

[1] Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку,1980, с.98.
[2] Həsənəliyev Z.M. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı, Nurlar, 2007, 101 s.
[3] Челеби Эвлия.Книга путешествий. Вып.3, Москва,1983,с.51.
[4] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-VII вв. Баку, 1982, 214с.;
[5] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, 117 s.
[6] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, s.115 .

olması haqqında məlumat verir: "Şirvan əyalətinin şəhəri olan Şamaxı böyük və möhkəmdir, 40-a qədər qala topları, 30 –a qədər səhra topları vardır." Təbriz, Qum, İsfahan kimi şəhərlərdə toptökmə karxanası təsis edilmişdi.İstehsal olunan toplar arasında mortira (qısa lüləli), səhra topları da vardı. [1] Azərbaycanın güney şəhərlərində, xüsusilə Təbrizdə XV yüzillikdən başlayaraq tüfəng istehsal olunurdu. Mənbələrdə Təbrizdə tüfəng düzəldən ustalardan Qəzənfərəli və oğlu Məhəmməd Saleh bəyin adları çəkilir. [2] Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, Azərbaycanda bu qədər odlu silahların olması, topların, tüfənglərin hamısı xaricdən gətirilmə deyil, yerli istehsalın məhsulu idi. [3]

Dissertasiyanın nəticə hissəsində tədqiqatın yekunları verilimiş, əsas nəticələr ümumiləşdirilmişdir. Dissertasiyaya 57 cədvəldən ibarət tarixi illüstrasiyalar əlavə edilmişdir. İllüstrasiyaların bir qismini orta əsr Azərbaycan miniatürlərində rast gəlinən hücum və müdafiə silahları, onların tətbiqi və daşınması qaydaları təsvir edilən şəkillər təşkil edir. Daha böyük bir qismini Milli Azərbaycan Tarixi Muzeyinin materialları təşkil edir.

---

[1] Baxşəliyev A.B. Metal işləmə. BDU xəbərləri. Humanitar elmlər seriyası. №1,Bakı, 2004, s.96.
[2] Baxşəliyev A.B. Metal işləmə. BDU xəbərləri. Humanitar elmlər seriyası. №1,Bakı, 2004, s. 98.
[3]Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002 , s.116.

Müəllifin dissertasiya mövzusuna dair məqalələri müxtəlif elmi məcmuələrdə dərc olunmuşdur:

1. Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında mühafizə olunan bəzi toppuz nümunələri haqqında., ATM. Bakı – Elm, 2003, s. 286-291 (s.335);

2. Azərbaycan Tarixi Muzeyində qorunan nizə və mizraq nümunələri., ATM. Bakı – Elm, 2004, s.165-171 (s. 366);

3. Azərbaycanda orta əsrlər dövründə nizələr., Hərbi bilik. Bakı, 2004, № 6, s.101 -105(s.111);

4.Azərbaycanın son orta əsr silahlarının öyrənilməsində ATM kolleksiyasının rolu (halqalı zirehlər)., ATM. Bakı – Elm, 2005, s. 195-202 (s.451);

5.Muzey kolleksiyasındakı şəmşir qılınc növü haqqında., ATM. Bakı – Elm, 2006, s.227-235 (s. 425);

6.XVIII – XIX əsrin I yarısının mənbələrində zənburəklər., ATM. Bakı – Elm, 2007,s. 95-101 (s.476);

7. Molla Pənah Vaqifin əsərlərində silah istilahları., Magistrantların və gənc tədqiqatçıların Azərbaycan Xalq Cümhuriyyətinin 89-cu ildönümünə həsr olunmuş VI elmi-praktik konfransının materialları. Bakı, 2007,s.199-202 (s.347);

8. Щит – как геральдический символ., ATM. Bakı – Elm, 2006, s.387-393 (s.426);

9. Шлем – геральдический символ., ATM. Bakı – Elm, 2007, s.354 -360 (s.476);

10. Холодное оружие Азербайджана в XVIII – нач. XIX вв., //Актуальные проблемы гуманитарных и естественных наук. Москва, 2009.

11. Mirzə Mehdi Astrabadinin “Tarixi - Nadiri” əsərinin miniatürləri XVIII əsr Şərq silah nümunələrinin öyrənilməsində mənbə kimi. Azərbaycan respublikası Gənclər və İdman Nazirliyinin “Gənc alimlərin I respublika innovativ ideya yarmarkası” konfransının materialları. Bakı, 2010, s. 195-210 (s.427)

**Севиндж Вагабова**

## Роль Музейных материалов в изучении оружия Азербайджана конца средних веков

## Р Е З Ю М Е

Диссертация, написанная на основе письменных, музейных, миниатюрных источников, состоит из введения, 3-х глав, заключения, библиографии и приложения. Во введении обоснована актуальность темы, рассмотрена степень изученности проблемы, определены цели и задачи исследования, рассмотрены методологическая база, основные источники по проблеме, научная новизна и практическая значимость, показана структура диссертации.

Первая глава исследовательской работы под названием «Оборонительное оружие» состоит из 3-х параграфов. В этих параграфах дается подробная информация о различных видах оборонительного оружия, как, шлемы, щиты, латы, наручи, поножи, кольчуги и др. доспехи. В диссертации сравнивается шлемы хранящихся в различных музеях мира  с шлемами Азербайджанскими, определяется их особенность.

Вторая глава под названием «Холодное оружие» состоит из 4-х параграфов. Холодное оружие, состоявщее на вооружении воинов азербайджанских ханств, было довольно разнообразным как по типам,так и по видам. В зависимости от назначения холодное оружия разделяется на следующие виды: колющее, ударное, рубящее, режущее. Колющее оружие было представлено копьями, пиками, дротиками, зубинами. Ударное оружие конца XVIII – начала XIX веков было представлено булавой, шестопером. Рубящее оружие представлено боевыми топорами и табарзинами. Табарзины носили универсальный характер. Они использовались как рубящее, режущее и колющее оружие. Рубящее-колющее оружие представлено разными видами шашек, сабель, гаддара, кинжалов и боевых ножах.

Третья глава под названием «Огнестрельное оружие» состоит из 3-параграфов. В этой главе дается полное информация о пушках, пистолетах и ружьях. В зависимости от целей и способа применения, артиллерийские орудия XVIII-XIX  вв. делятся на полевые, осадные и крепостные. Полевая артиллерия включала в себя крупные и мелкие замбуреки и орудия на колесных лафетах. Индивидуальное оружие можно разделить на ружья и пистолеты. Проведенные нами исследования показали, что в Азербайджане применялось два типа ружей: фитильное и кремневые. Аналогичную версию можно сказать и о пистолетах. Принадлежности к индивидуальному огнестрельному оружию включали  мерку для пороха, сумочку для газырей, пороховницу, масленку и для пистолетов кобуру. Применялся два типа пороха: крупнозернистый  и мелкозернистый. Все эти указанные оружия обосновывается по коллекциям Национального Музея Истории Азербайджана.

В заключении обобщены выводы.

В приложениях (57 таблиц) даются иллюстрации с изображениями образцов оружия.

**Sevinj Vahabova**

## Role of museum materials in studying the weapon of Azerbaijan of the end of Middle Ages

### SUMMARY

The dissertation written on the basis of written, museum, miniature sources, consists of introduction, three chapters, the conclusion, the bibliography and the appendix. In the introduction is proved the urgency of the theme , the degree of scrutiny of a problem is considered, the purposes, and research problems are determined, the methodological base, the basic sources on a problem scientific novelty and the practical importance are considered, the structure of the dissertation is shown.

The first chapter of research work under the name « the Defensive weapon» consists of three paragraphs. In these paragraphs the detailed information on various kinds of the defensive weapon as helmets, boards, an armour, manacle, scabbard, chain armours and other armour is given.In the dissertation it is compared helmets stored in various museums of the world to helmets Azerbaijan, their feature is defined.

The second chapter under the name "Cold arms» consists of four paragraphs. The cold arms consisting on arms of soldiers Azerbaijan khanates, was rather various both on types, and by kinds. Depending on purpose cold weapon has been divided on the following kinds: thrust weapon, shock, chopping, cutting. The shock weapon of the end of the XVIII-beginning of XIX centuries has been submitted mace, the pole.

The third chapter under the name "Fire-arms" will consist of three-paragraphs. In this chapter is given full information on cannons , pistols and guns. Depending on the purposes and a way of application, artillery pieces of ordnance of XVIII-XIX centuries were divided into field guns , siege guns and to siege fortresses.. The field artillery included both large and small zambureks and instruments on wheel gun carriages. The researches carried out by us have shown, that in Azerbaijan was applied two types of guns: wick weapons and silicon. It was applied two types of gunpowder: coarse-grained and fine-grained. All these specified the weapon is proved on collections of the National Museum of the History of Azerbaijan.

In the conclusion have been generalized summery .

In appendices are given (57 tables) illustrations with images of samples of the weapon.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ВАГАБОВА СЕВИНДЖ ГАРИБАГА КЫЗЫ**

# РОЛЬ МУЗЕЙНЫХ МАТЕРИАЛОВ В ИЗУЧЕНИИ ОРУЖИЯ АЗЕРБАЙДЖАНА КОНЦА СРЕДНИХ ВЕКОВ

Специальность: 07.00.02 – Отечественная история

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку – 2011**